*“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 4 mart 2015-ci il № 17 (1933) | Qiyməti 25 qəpik

## Azərbaycan Respublikası vətəndaşlarının 2015-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin

# Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə uyğun olaraq və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələri şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

1. 1997-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1980-1996-cı illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2015-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.
2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2015-ci il aprelin 1-dən 30-dək ehtiyata buraxılsınlar.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 mart 2015-ci il.

## Müdafiə naziri cəbhə bölgəsində yerləşən hərbi hissədə toplantı keçirib

Müdafiə naziri general-polkovnik Zakir Həsənov cəbhə bölgəsində yerləşən hərbi hissədə olub və nazirliyin rəhbərliyinin iştirakı ilə komandir heyəti ilə toplantı keçirib. Toplantıda birlik, birləşmə, hərbi hissə komandirləri və qərargah rəisləri iştirak ediblər.

Müdafiə nazirinin rəhbərliyi ilə keçirilən müşavirədə Silahlı Qüvvələrdə döyüş hazırlığının vəziyyəti, müdafiə sistemi, onun hərtərəfli təminatı və bir sıra digər xidməti məsələlər müzakirə edilib.

Müdafiə naziri tərəfindən döyüş qabiliyyətinin daha da yüksəldilməsi ilə əlaqədar müvafiq tapşırıqlar verilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransında Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin nəticələrindən danışılıb

Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva Malayziyada səfərdədir. O, Kuala Lumpur şəhərində keçirilən Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransında (ICAPP) YAP-ı təmsil edir.

S. Fətəliyeva konfransda çıxış edərək bildirib ki, müasir dünyanın qarşısında bır sıra çağırışlar durur: Terrorizmlə və ekstremizmlə, dini dözümsüzlüklə mübarizə, bütün dünyada insanların sülh və əmin-amanlıq şəraitində yaşamasının təmin edilməsi. O deyib: "Təəssüflər olsun ki, biz terrorizmin nə olduğunu çox yaxşı bilirik. Azərbaycan torpaqlarının 20 faizi Ermənistan tərəfindən zəbt olunub. İşğal bu gün də davam edir. Bu işğal çoxlu sayda insanın ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilməsinə, 1 milyondan artıq insanın doğma yurdlarından didərgin düşərək, qaçqın və məcburi köçkünə çevrilməsinə səbəb olub. Bununla kifayətlənməyən terroristlər tarixi abidələrimizi, mədəni irsimizi, bütünlüklə kəndlərimizi məhv ediblər, ekologiyaya ziyan vurublar.

Biz daimi olaraq dünya ictimaiyyətini çağırırıq ki, Ermənistanı beynəlxalq hüquq normalarına riayət etməyə məcbur etsin. Biz onların girov götürdükləri insanların geri qaytarılmasını tələb edirik. Əgər bu gün biz dünyada sülhün və stabilliyin bərqərar olunmasını istəyiriksə, ən əsas və ali amilə, beynəlxalq hüquq normalarına riayət etməli, insanlığa hörmətlə yanaşmalıyıq".

**AzərTAc**

# Dövlətin qayğısı hərbi qulluqçuların döyüş ruhunu daha da artırır

## Cəbhə bölgəsində yeni tikilən daha bir hərbi hissə istifadəyə verilib

***Son illərdə Azərbaycan Ordusunda hərbi qulluqçuların xidmət və məişət şəraitinin yaxşılaşdırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilib. Bu gün hər bir azərbaycanlıya aydındır ki, ordumuzun inkişafı yalnız 1993-cü ildə xalqın təkidli istəyi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin böyük diqqət və qayğısı sayəsində mümkün olmuşdur. O zaman müxtəlif silahlı dəstələrdən ibarət olan ordumuzda vahid komandanlıq yox dərəcəsində idi. Ancaq xalqımızın böyük oğlu Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra pərakəndə silahlı dəstələr ləğv edildi və Müdafiə Nazirliyinə birləşdirildi. Bu mərhələ asanlıqla həyata keçmədi. Çox böyük çətinliklərdən sonra ordumuzda nizam-intizam, vahid komandanlıq yarandı. Beləliklə, ümummilli lider Heydər Əliyevin siyasi qətiyyəti ilə Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoydu. Bir qədər sonra isə erməni təcavüzkarlarına qarşı gedən döyüşlərdə vahid komandanlıq altında birləşən Silahlı Qüvvələrimiz bir çox uğurlu hərbi əməliyyatlara imza atdı.***

Ali Baş Komandan İlham ƏLİYEV:

*“2015-ci ildə biz ordu potensialımızı daha da gücləndirəcəyik. Bu məqsədlər üçün kifayət qədər böyük vəsait ayrılıbdır. Təkcə onu demək kifayətdir ki, hərbi xərclərə ayrılan vəsait Ermənistanın ümumi büdcəsindən 2 dəfədən çoxdur”.*



Bu gün Azərbaycan Ordusu ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan dövlətimizin başçısı cənab İlham Əliyevin qayğısı ilə əhatə olunub. Onun tez-tez cəbhə bölgəsində əsgər və zabitlərin yanında olması hər bir ölkə vətəndaşında xalqımızın firavan gələcəyinə, torpaqlarımızın erməni quldurlarından tezliklə azad ediləcəyinə ümid yaradır. Qafqaz orduları arasında Azərbaycan Silahlı Qüvvələri gücünə və qüdrətinə görə birinci yerdədir. Bu, dövlət başçımızın orduya göstərdiyi diqqət və qayğının parlaq nümunəsidir. Qısa zamanda hərbi, siyasi və iqtisadi sahələrdə böyük layihələr həyata keçirilib. Orduda aparılan islahatlar nəticəsində düşmənlə təmas xəttində yerləşən hərbi birlik və birləşmələrdə müasir dövrün tələblərinə cavab verən hərbi hissələr tikilib və şəxsi heyətin istifadəsinə verilib. Yeni salınmış hərbi şəhərciklər ilk növbədə əsgərlərin döyüş hazırlığının daha da artırılmasına və onların sağlamlığına xidmət edir.

Hazırda bir çox yerlərdə köhnə, istifadə müddəti başa çatmış primitiv tikililəri yeni dövrün tələblərinə cavab verən müasir yataqxanalar əvəz edir. Bu günlərdə cəbhə bölgəsində özüyeriyən artilleriya divizionu üçün yeni tikilmiş hərbi şəhərciyin açılışı olub. Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov açılış mərasimində iştirak ediblər. Nəzarət-buraxılış məntəqəsində fəxri qarovul bölüyünün rəisi ordu rəhbərinə raport verdi. Zabit və qonaqlarla görüşən Müdafiə naziri və digər rəhbər şəxslər sıra meydanına gəldilər. Birlik komandiri general-mayor Hikmət Həsənov Müdafiə nazirinə şəxsi heyətin yeni hərbi şəhərciyin açılışı münasibətilə düzüldüyü barədə məruzə etdi. Nazir şəxsi heyəti salamladı.

Azərbaycan Respublikasının Dövlət himninin ifası ilə mərasim açıq elan olundu. Ulu öndərimiz Heydər Əliyevin və şəhidlərimizin xatirəsi yad edildi. Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi hissənin şəxsi heyəti qarşısında çıxış edib, Ali Baş Komandanın ordu quruculuğuna göstərdiyi yüksək diqqətin nəticəsi kimi son vaxtlar döyüş və mənəvi-psixoloji hazırlığın daha da gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə görülən işlərdən danışdı. O, sözünə davam edərək bildirdi: "Bu gün biz yeni hərbi şəhərciyin açılışında iştirak edirik. Son bir neçə ay ərzində artıq 3-cü hərbi hissənin açılışı həyata keçirilir. Plana uyğun olaraq, bu il daha bir neçə hərbi hissənin açılışı nəzərdə tutulub.

Ölkəmizin rəhbərliyi Silahlı Qüvvələrin inkişafını ən mühüm istiqamətlərdən biri hesab edir. Ordumuz müasir silah və texnika ilə təchiz olunur, şəxsi heyətin sosial bazasının möhkənləndirilməsi məqsədilə yeni hərbi şəhərciklər, xidməti mənzillər tikilərək əsgər, gizir və zabitlərin istifadəsinə verilir. Bütün bunlar Ali Baş Komandanın Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğının nəticəsidir.

**(Ardı 2-ci səhifədə)**

## Xocalı qətliamının soyqırımı kimi tanınması üçün tam hüquqi əsas var

Xocalı qətliamının soyqırımı kimi tanınması üçün tam hüquqi əsas var.

Bu sözləri Azərbaycanın İtaliyadakı səfirliyinin müşaviri Vüqar Hacıyev AzərTAc-ın və yerli "Askanews", "Radicale", "İl Giornale", "Geopolitica", "Globalist" kimi kütləvi informasiya vasitələrinin jurnalistlərinin iştirakı ilə keçirdiyi mətbuat konfransında deyib.

"Soyqırımı" anlayışının mahiyyətini analiz edən diplomat bildirib ki, BMT-nin "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyasının ikinci maddəsinə əsasən, etnik qrupu tamamilə və ya qismən məhv etmək niyyəti ilə onun üzvlərini öldürmək, fiziki və əqli cəhətdən ağır zərbələr vurmaq, həmin qrupun nümayəndələrinin tamamilə və ya qismən məhvi ilə nəticələnən dözülməz vəziyyətlərdə saxlamaq soyqırımı hesab olunur. Belə ki, sadalanan bütün bu hallar Xocalı faciəsi zamanı azərbaycanlılara qarşı tətbiq olunub.

V.Hacıyev Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalının "Prokuror Radislava qarşı" işində hər hansı əməlin soyqırımı aktı kimi tövsif edilməsi üçün etnik qrupun varlığına ciddi təhlükə yarada biləcək əhəmiyyətli bir hissəsinin məhv edilməsi şərtinin olduğunu xatırladaraq deyib: "Nəzərə alsaq ki, azərbaycanlıların sayına görə Xocalı şəhəri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində ikinci yeri tuturdu, bu zaman həmin bölgədə yaşayan azərbaycanlıların böyük bir hissəsinin məhv edilməsi niyyətinin olduğunu bəyan etmək olar. Xocalı soyqırımı həmin ərazidə yaşayan insanları məhz azərbaycanlı olduqları üçün tamamilə məhv etmək niyyəti ilə qəsbkar ermənilər tərəfindən törədilib. Soyqırımının tarixi nümunələri göstərir ki, tam və ya qismən məhv etmək niyyəti (cinayətin məkan və qurbanların sayı baxımdan miqyası) canilərin əlində olan imkanlara görə ölçülür. Belə ki, Xocalıda əhalinin bir qisminin soyqırımından xilas olması erməni tərəfinin mərhəmətindən irəli gəlmir, sadəcə ermənilərin həmin şəxsləri öldürməyə müyəssər olmamaları ilə bağlıdır.

Mətbuat konfransında Xocalı faciəsi qurbanlarının guya azərbaycanlıların nəzarət etdiyi ərazidə öldürülməsi, faciə zamanı Azərbaycanın həmin dövrdəki rəhbərliyinin mülki əhalidən qalxan kimi istifadə etməsi kimi erməni cəfəngiyatları ilə bağlı italiyalı jurnalistlərin suallarına səfirliyimizin müşaviri foto və videomateriallar vasitəsilə cavab verərək, bu iddiaların tamamilə əsassız olduğunu sübut edib.

V.Hacıyev Ermənistan tərəfindən bu soyqırımına görə məsuliyyətin etiraf edilməsinin və Azərbaycan xalqından üzr istənilməsinin, işğal olunmuş ərazilərdən Ermənistan silahlı qüvvələrinin çıxarılmasının xalqlar arasında barış üçün stimul ola biləcəyini bildirib.

**AzərTAc**

## İsveç parlamentinin deputatları Azərbaycan həqiqətləri barədə məlumatlandırılıblar

İsveçdə fəaliyyət göstərən "Azərbaycan naminə" Cəmiyyətinin sədri Nadir Hollenbrand bu ölkənin parlamentinin deputatları, ziyalıları, KİV nümayəndələri ilə görüşüb.

Görüşdə N.Hollenbrand Azərbaycan həqiqətləri haqqında məlumat verib. O, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, zəbt edilmiş torpaqlarda etnik təmizləmə siyasəti aparması və 20 ildən artıqdır ki, Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlaması barədə faktları görüş iştirakçılarının diqqətinə çatdırıb.

N.Hollenbrand Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə başlayan Qarabağ müharibəsinin dəhşətləri və bu müharibənin ən qanlı hadisəsi, bəşəriyyətə qarşı cinayət olan Xocalı soyqırımından bəhs edib. Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Xocalı şəhərini bir gecədə yer üzündən silməsi, yüzlərlə insanı işgəncələrlə qətlə yetirməsi barədə danışan cəmiyyətin rəhbəri artıq dünyanın bir sıra ölkələrinin bu faciəni soyqırımı kimi tanıdığını vurğulayıb. O, İsveç parlamentini də Xocalı soyqırımını tanımağa çağırıb, Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülmüş azərbaycanlılar Dilqəm Əsgərov və Şahbaz Quliyevin taleyi ilə bağlı narahatlığı diqqətə çatdırıb.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair müzakirələr aparılıb. Görüş iştirakçıları ölkəmizin iqtisadi inkişafını, son illərdə Bakının bir sıra genişmiqyaslı beynəlxalq tədbirlərə ev sahibliyi etməsini xüsusi vurğulayıblar.

**AzərTAc**

# Dövlətin qayğısı hərbi qulluqçuların döyüş ruhunu daha da artırır

## Cəbhə bölgəsində yeni tikilən daha bir hərbi hissə istifadəyə verilib





**(Əvvəli 1-ci səhifədə)**

Azərbaycan xalqının və dövlətinin bir problemi var - bu Dağlıq Qarabağ problemidir. Bu məsələnin müsbət həll olunması istiqamətində mühüm işlər həyata keçirilir. Silahlı Qüvvələrin möhkəmləndirilməsi də dövlətin prioritet sahələrindən ən vacibidir.

Son vaxtlar Silahlı Qüvvələrimiz döyüş hazırlığını artırmaqla, döyüş qabiliyyətini yüksək səviyyədə saxlamaqla düşmən üzərində üstünlüyə nail olmaq vəzifəsini layiqincə yerinə yetirir.

Bu günlərdə xalqımız Xocalı faciəsinin anma tədbirlərini keçirdi. Biz hamımız, xüsusilə Silahlı Qüvvələrimizin şəxsi heyəti, xalqımıza qarşı törədilən bu soyqırımı heç vaxt unutmamalıyıq. Biz əminik ki, Xocalı faciəsini törədənlər mütləq ədalət məhkəməsi qarşısında cavab verəcək və cinayətkarlar layiqli cəzalarını alacaqlar.

Silahlı Qüvvələr güclü və möhkəm olmalıdır ki, xalqımız bir daha belə vəhşiliklə üzləşməsin. Biz öz döyüş imkanlarımızı və hazırlığımızı artırmaq məqsədilə silahlarımızı elə dərindən öyrənməliyik ki, xalqımızı qoruya bilək, düşmənə dağıdıcı zərbə endirməklə torpaqlarımızı işğaldan azad edək.

Artıq torpaqlarımızın azad olunacağı gün yaxınlaşır. Biz hər gün, hər an, hər təlimdə Silahlı Qüvvələrimizi möhkəmləndirməklə bu günü daha da yaxınlaşdırırıq.

Mən bu yeni hərbi şəhərcikdə sizə xidmətinizdə uğurlar arzulayıram. Arzu edirəm ki, yüksək səviyyədə təşkil olunmuş bu hərbi şəhərcikdə döyüş hazırlığınızı daim təkmilləşdirəsiniz və hərbi hissənin qarşısına qoyulan tapşırıqları hər an operativ şəkildə yerinə yetirməyə tam hazır olasınız".

Sonra birlik komandiri general-mayor Hikmət Həsənov orduya göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizin başçısına və Müdafiə nazirinə dərin təşəkkürünü bildirdi. O qeyd etdi ki, son bir neçə ayda bu bölgədə üçüncü belə müasir hərbi şəhərciyin açılışı olub. Bu da şəxsi heyəti Vətən qarşısında xidməti borcunu şərəflə, ləyaqətlə davam etdirməyə ruhlandırır.

Artilleriyaçılar adından əsgər İlkin Həsənov çıxış etdi. O, silahdaşları adından yaradılan yüksək şəraitə görə minnətdarlığını bildirdi. Komandirlərin əmr və göstərişlərinə sözsüz tabe olacaqlarını, hərbi biliklərə dərindən yiyələnməklə qarşıda dayanan istənilən döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirəcəklərinə söz verdi.









Mərasimdən sonra Müdafiə Nazirliyinin rəhbər heyəti yeni istifadəyə verilmiş əsgər yataqxanasına gəldi.

Müasir dövrün tələblərinə cavab verən əsgər yataqxanasının dəhlizini ölkə başçısının cəbhə bölgəsinə səfərlərini əks etdirən fotostendlər, divar mətbuatı, Azərbaycanın Milli Qəhrəmanlarının foto guşəsi bəzəyir. Dəmir barmaqlıqlarla əhatə olunmuş silah-sursatların saxlanma otaqları, hər cür mebellərlə təchiz olunmuş zabitlərin iş və istirahət otaqları, əyani dərs vəsaitləri ilə təmin edilmiş sinif otaqları isə şəxsi heyətdə hərbi biliklərin mükəmməl aşılanmasına kömək edəcəkdir.

Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi istiqamətində də yerincə işlər görülüb. İdeoloji otaqlar lazım olan təbliğat-təşviqat avadanlıqları ilə təmin edilib. Əsgərlərin təlim-məşqlərdən sonra istirahətini təmin edəcək çarpayı dəstləri, idman-trenajor zalları bütün avadanlıqlarla təmin edilib. Həmçinin hərbi şəhərcik ümumi istilik sistemiylə təmin olunaraq tam vəziyyətdə hərbçilərin istifadəsinə verilib.

Müdafiə Nazirliyinin rəhbər heyəti burada zabitlərin lazımi mebellərlə təmin edilmiş xidməti otaqlarına baş çəkdi və yüksək zövqlə tikilmiş binadan razı qaldı.

Zirehli-döyüş texnikalarının saxlandığı parkda olan Müdafiə naziri və nazirliyin rəhbər heyəti döyüş maşınlarının texniki vəziyyəti ilə yerində tanış oldular. Texnikaları ətraf mühitin təsirlərindən qorumaq üçün tikilmiş saxlanclara baxış keçirildi. Qeyd edək ki, hərbi hissənin ərazisinə kanalizasiya sistemi quraşdırılıb, dəmir-betonla örtülü sıra, təlim meydanları, həmçinin avtomobil yolları tam istifadəyə hazırdır.

Hərbi şəhərciyin daimi istiliklə təmin edilməsi məqsədilə həm qazla, həm də soba yanacağı ilə işləyən və bir mərkəzdən idarə olunan qazanxana tikilib istifadəyə verilib. İş icraçısı Əhliman Heydərovun açıqlamasına görə, hərbi şəhərciyin fasiləsiz elektriklə təmin edilməsi üçün 10 kilovatlıq mühərrik quraşdırılıb və tam gücü ilə işləyir.

General-polkovnik Zakir Həsənov və Müdafiə Nazirliyinin rəhbər nümayəndələri əsgər yeməkxanasına gəldilər. Onlar yeməkxananın mətbəxində istifadəyə verilmiş avadanlıqlara baxdılar. Sonra isə əsgərlərlə birgə mülki qadın aşpazlarının hazırladıqları nahar süfrəsinə əyləşdilər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov tikilməkdə olan digər iki hərbi şəhərciyə də baş çəkdilər. Onlar tikinti işlərinin gedişi ilə yaxından tanış oldular və tikinti-podratçı şirkətinin nümayəndələrinə öz tapşırıqlarını verdilər.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**







AZƏRBAYCAN ORDUSU


# Müdafiə naziri Yaponiyanın ölkəmizdəki səfirini qəbul edib

***Martın 3-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Tsuquo Takahaşini qəbul edib.***



Müdafiə naziri regiondakı hərbi-siyasi vəziyyətə toxunaraq Ermənistanın işğalçılıq siyasətinin bu gün də davam etdiyini, bunun nəticəsində sülh prosesinin yubanmasını və danışıqların uzadılmasının bölgədəki şəraitə mənfi təsir göstərməsini diqqətə çatdırıb.

Görüşdə Azərbaycan ilə Yaponiya arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsində qarşılıqlı marağın olması barədə fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Sənayesi Nazirliyinin "İDEX-2015" sərgisində nümayiş etdirdiyi məmulatlar böyük maraqla qarşılanıb

***Müdafiə Sənayesi Nazirliyinin (MSN) müəssisələrində yaradılan və istehsal olunan müdafiə təyinatlı məmulatlar fevralın 22-dən 26-dək Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Abu-Dabidə keçirilən "İDEX-2015" beynəlxalq müdafiə sənayesi sərgisində nümayiş etdirilib.***

MSN-dən AzərTAc-a bildiriblər ki, iki ildən bir keçirilən "İDEX" sərgisində nazirlik ikinci dəfə iştirak edib.

Dünyanın 55 ölkəsindən 1162 şirkətin qatıldığı sərgidə MSN 170-dən artıq müdafiə təyinatlı məmulat nümayiş etdirib. Beynəlxalq sərgidə "İstiqlal-1T", "Mübariz", "Yalquzaq", "Yırtıcı" snayper tüfəngləri, "Şimşək-10" hücum pulemyotu, müxtəlif növ döyüş sursatları ilə yanaşı, ilk dəfə sərgilənən məmulatlardan NATO standartlarına uyğun 5,56x45 çaplı avtomat silah MSN-in stendini ziyarət edən xarici nümayəndə heyətləri tərəfindən böyük maraqla qarşılanıb.

Səfər çərçivəsində nazir Yavər Camalovun "İDEX-2015" sərgisinə qatılan Türkiyə, ABŞ, Almaniya, Fransa, Braziliya, Cənubi Afrika Respublikası, Çin, Çexiya və digər ölkələrin qabaqcıl şirkətlərini təmsil edən nümayəndə heyətlərinin rəhbərləri ilə keçirdiyi görüşlərdə mövcud və yeni əməkdaşlıqlara dair danışıqlar aparılıb.

Müdafiə Sənayesi Nazirliyinin əməkdaşları sərgidə iştirak edən ölkələrin nümayəndə heyətlərinə 2016-cı ildə Azərbaycanda keçiriləcək "ADEX-2016" ikinci beynəlxalq müdafiə sənayesi sərgisi ilə bağlı məlumat verib və dəvətləri çatdırıblar.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Əsgər xəstəlikdən vəfat edib

Gəncə şəhərində yerləşən "N" hərbi hissəsində xidmət edən 28.08.1990-cı ildə anadan olmuş, 07.01.2015-ci ildə Qusar rayonundan hərbi xidmətə çağırılmış əsgər Pərvanəyev Vicay Gülmət oğlu ilkin araşdırmaya əsasən kəskin ürək və tənəffüs çatışmazlığı səbəbindən martın 2-də vəfat edib.

Hazırda məhkəmə-tibb ekspertizası araşdırma aparır.

Hərbi Prokurorluq tərəfindən fakt üzrə cinayət işi başlanılıb.

Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçunun yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

## Türkiyə Respublikası Hərbi Hava Qüvvələri Komandanı ölkəmizə rəsmi səfərə gələcək

Martın 4-də Türkiyə Respublikasının Hərbi Hava Qüvvələri Komandanı ordu generalı Akın Öztürk Azərbaycan Respublikasına rəsmi səfərə gələcək.

Səfər çərçivəsində qonağın Müdafiə Nazirliyində bir sıra görüşləri planlaşdırılır.

Türkiyə Hərbi Hava Qüvvələri Komandanı ordu generalı A.Öztürkün Azərbaycana səfəri martın 6-dək davam edəcək.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Martın 2-dən 6-dək Latina şəhərində (İtaliya) maddi-texniki təminat üzrə funksional sahələr sistemi (LOGFAS) kursu; martın 2-dən 13-dək Ankara şəhərində (Türkiyə) silahlı münaqişə hüququ kursu; martın 4-dən 6-dək Oberammerqau şəhərində (Almaniya) NATO məktəbində keçiriləcək tədbirlərin planlaşdırıcıları üçün konfrans nəzərdə tutulub.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Təmas xəttində monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, martın 4-də Goranboy rayonunun Tapqaraqoyunlu kəndi yaxınlığındakı qoşunların təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik, səhra köməkçisi Xristo Xristov və ATƏT-in yüksək səviyyəli planlaşdırma qrupunun nümayəndəsi polkovnik Tuncay Sevim (Türkiyə) keçirəcəklər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Yevgeni Şarov, Piter Svedberq və ATƏT-in yüksək səviyyəli planlaşdırma qrupunun nümayəndəsi polkovnik Markus Uidmer (İsveçrə) keçirəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***3 mart 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 66 dəfə pozub.

Ermənistan Respublikasının Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Tərtər rayonunun Çiləbürt, Çaylı, Göyarx, Ağdam rayonunun Yusifcanlı, Şıxlar, Şuraabad, Sarıcalı, Şirvanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

# Azərbaycan Türkiyədə keçirilən çoxmillətli hərbi təlimlərdə iştirak edəcək



***Azərbaycanla Türkiyə arasında illik hərbi əməkdaşlıq planına əsasən, "TurAz Şahini 2015" təlimləri başlayıb.***

Azərbaycan Hərbi Hava Qüvvələrinin 3 ədəd MiQ-29 qırıcı, 3 ədəd Su-25 hücum və İl-76 hərbi-nəqliyyat təyyarəsi müştərək təlimlərdə iştirak etmək məqsədilə Türkiyə Respublikasının Konya şəhərində yerləşən aviabazaya gəlib.

Eyni zamanda "İŞIK-2015" beynəlxalq axtarış-xilasetmə təlimlərində iştirak etmək məqsədilə Azərbaycan Hərbi Hava Qüvvələrinin 4 ədəd Mi-17 döyüş-nəqliyyat helikopterləri də təlim keçiriləcək Konyadakı aviabazaya yollanıb.

Təlimlərdə Azərbaycan və Türkiyə ilə yanaşı, bir sıra ölkələrin Hərbi Hava Qüvvələrinin vasitələri müştərək fəaliyyətlərin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanlarının öyrənilməsi, o cümlədən axtarış-xilasetmə və digər tapşırıqları yerinə yetiriləcəklər.

Təlimlər aprelin 13-dək davam edəcəkdir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Məqsəd hərbi təhsilin müasir standartlara uyğunlaşdırılmasıdır

## Hərbi Akademiyada NATO-nun ekspert qrupu ilə işçi görüşü keçirilib





***Martın 2-də Silahlı Qüvvələrin Hərbi Akademiyasında NATO-nun ekspert qrupu ilə növbəti işçi görüşü keçirilib.***

- Ölkəmizdə hərbi təhsilin müasir dünya standartlarına uyğunlaşdırılması məqsədilə 2009-cu ildən NATO-nun müvafiq qurumları ilə ardıcıl işlər görülür, - Hərbi Akademiyanın nümayəndəsi polkovnik-leytenant Azər Həsənov bildirdi. - Azərbaycan Müdafiə Nazirliyinin təklifilə hərbi təhsil sisteminin hərtərəfli inkişafına yardım üçün NATO ilə əməkdaşlıq proqramı qəbul edilib. NATO-ABŞ ekspert qrupu ilə Müdafiə Nazirliyinin mütəxəssisləri arasında həmin proqram çərçivəsində hərbi təhsilimizin inkişafı ilə bağlı tədbirlər həyata keçirilir. Bu görüşün keçirilməsində məqsəd isə ötən 6 il ərzində görülən işlərə və əldə edilmiş nəticələrə yekun vurulması və yaxın perspektivdə görüləcək işlərin müzakirə edilməsindən ibarətdir.



NATO ilə hərbi təhsil sahəsində əməkdaşlıqda iştirak edən əsas tərəflərdən biri Silahlı Qüvvələrin Hərbi Akademiyasıdır. Öncə Hərbi Akademiyanın rəisi general-leytenant Heydər Piriyev ekspert qrupunun üzvləri - NATO-nun Beynəlxalq Qərargahının Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti İdarəsinin nümayəndələri Jan d.Andurain, Pavel Anastasov, həmçinin ABŞ Hərbi Dənizçilik Akademiyasının professoru Tomas Fedişin ilə görüşdü, hərbi təhsilin inkişaf etdirilməsilə bağlı fikir mübadiləsi aparıldı.

Sonra Hərbi Akademiyanın rəhbərliyinin iştirakı ilə genişləndirilmiş tərkibdə görüş və işçi müzakirələr davam etdirildi. Müzakirələrdə, həmçinin Müdafiə Nazirliyinin müvafiq qurumlarının nümayəndələri və hərbi təhsil müəssisələrinin tədris şöbələrinin rəisləri iştirak edirdilər.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar kiçik çavuş Namiq PƏNAHOVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## Lyublyanada Mehdi Hüseynzadənin abidəsi ucaldılacaq



Lyublyana şəhərinin meri Zoran Jankoviç AzərTAc-ın əməkdaşlarına müsahibəsində deyib ki, bu il şəhərdə Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan xalqının igid oğlu Mehdi Hüseynzadənin abidəsi ucaldılacaq. Mer müsahibəsində Azərbaycana səfərindən danışıb, bu səfərin onda dərin təəssüratlar yaratdığını söyləyib. Azərbaycanın son 10 ildə sürətlə inkişaf etdiyini söyləyən Zoran Jankoviç Heydər Əliyev Mərkəzinin, Dənizkənarı Bulvarın gözəlliyinin onu heyran etdiyini vurğulayıb. Bakının təmiz, səliqəli şəhər olduğunu deyən mer şəhərdə Avropa Oyunları üçün tikilən Olimpiya kəndində də olduğunu diqqətə çatdırıb. O, Azərbaycanın yaxşı inkişaf perspektivlərinin olduğunu bildirib.

## Latviyada azərbaycanlı deputat parlamentin komitə sədri seçilib




Latviya parlamentinin yeganə azərbaycanlı deputatı Roman Naudinş qanunverici orqanın komitələrindən birinin rəhbəri seçilib.

Qeyd edək ki, R.Naudinşin babası İdris İbrahimov Azərbaycanın Siyəzən rayonundandır və 1956-cı ildə Latviyaya köçüb. O, 1982-ci ildə Latviyanın Valmiera şəhərində anadan olub. Polis Akademiyasını bitirib və bir müddət istintaq orqanlarında yüksək vəzifələrdə çalışıb. Daha sonra vəzifəsindən istefa verərək bir müddət ailə biznesinin inkişafı ilə məşğul olub. 2009-cu ildə Latviya Milli Birlik Partiyasından Valmiera Vilayət Dumasının deputatı, 2011-ci ildə isə parlamentin üzvü seçilib. 2014-cü ilin mayında regional inkişaf və ətraf mühit nazirinin istefasından sonra bu sahənin inkişafı üçün nazir vəzifəsinə Roman Naudinş təyin olunub.

## Kobani: qaçqınlar xarabalığa qayıdırlar



Kürd yaraqlıları ilə İŞİD arasında ağır döyüşlər getdiyi zaman Kobani şəhərini tərk etmiş 1700-ə qədər suriyalı doğma şəhərə qayıdır. Hazırda yüzlərlə qaçqın Türkiyə-Suriya sərhədindəki Mursitbınar buraxılış məntəqəsinə toplaşıb. AzərTAc Euronews telekanalına istinadla xəbər verir ki, son 10 gündə 7 minə qədər qaçqın, demək olar, daşı-daş üstə qalmayan Kobani şəhərinə dönüb. İŞİD qruplaşmasının şəhərə hücum etdiyi ərəfələrdə Kobaninin 200 minə qədər sakini Türkiyə ərazisinə sığınmışdı. Yanvarın sonlarına doğru kürd yaraqlıları beynəlxalq koalisiyanın hava zərbələrinin dəstəyi ilə İŞİD qruplaşmasını şəhərdən çıxara bilib.

## Rusiyada tanınmış siyasətçi Boris Nemtsov qətlə yetirilib



Rusiyanın tanınmış siyasətçisi Boris Nemtsov qətlə yetirilib. Qatillərin tutulması ilə bağlı xüsusi əməliyyat planı hazırlanıb. AzərTAc Rusiya KİV-lərinə istinadla xəbər verir ki, hadisə ilə bağlı Prezident Vladimir Putinə dərhal məruzə olunub. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib: "Vladimir Putin qətli sifariş və təxribat xarakteri daşıdığını bildirib. Prezident B.Nemtsovun qətli ilə bağlı istintaq qrupu yaratmağı və baş vermiş cinayəti şəxsi nəzarətə götürməyi tapşırıb". Rusiya Daxili İşlər Nazirliyinin xüsusi nümayəndəsi Yelena Alekseyeva cinayətin baş verdiyi yerə hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən baxış keçirildiyini diqqətə çatdırıb. Y.Alekseyeva jurnalistlərə bildirib ki, naməlum şəxslər ağ rəngli avtomobildən B.Nemtsova bir neçə dəfə atəş açıblar və o, hadisə yerində keçinib.

## Ukraynanın şərqində ağır texnikanın geri çəkilməsinə başlanılıb



Ukrayna hərbçiləri Donbasdakı ağır texnikanı ATƏT-in və jurnalistlərin nəzarəti altında geri çəkirlər. AzərTAc İTAR-TASS informasiya agentliyinə istinadla xəbər verir ki, Ukrayna Daxili İşlər Nazirliyinin Donetsk vilayəti üzrə baş idarəsinin sədr müavini İlya Kiva fevralın 26-da Debaltsevo və Aeroport rayonlarından ağır texnikanın geri çəkildiyini deyib. O bildirib ki, separatçılar tərəfindən razılaşmalara əməl olunacağı təqdirdə bu proses bütün təmas xətti boyu davam etdiriləcək.

## Qahirədə silsilə partlayışlar



Misirin paytaxtında bir neçə partlayış törədilib. Restoranlardan birində törədilən partlayış nəticəsində bir nəfər ölüb, iki nəfər yaralanıb. Yerli KİV-lər daxili işlər və səhiyyə nümayəndələrinə istinadla bildirirlər ki, ölən adam restoranın işçisi olub. Bundan öncə üç mobil rabitə ofisi qarşısında da partlayış törədilib. Ofislər bağlı olduğu üçün partlayışdan vitrinlər zədələnib, zərərçəkən yoxdur.

Digər partlayış isə polis bölməsinin yaxınlığında olub. İlkin məlumata görə, əldəqayırma qurğunun partlaması nəticəsində 10 nəfər yaralanıb. Onların arasında polislər də var.

## Astronomlar Günəşdən 12 milyard dəfə böyük nəhəng kosmik aşkarlayıblar



Öz tədqiqatları barədə məlumat verən alimlər işığı əks etdirməyən və bu səbəbdən də gözlə görünməyən qara dəliyi deyil, onun özünə "sovurduğu" həddən artıq yüksək temperatura malik işıldayan materiya - kvazarı təsvir edirlər. Harvard universitetindən olan kosmoloq Avi Loeb tapıntını "uyğunluq termini ilə desək, indiyə qədər aşkarlanan nəhənglər arasında ən nəhəngi" adlandırıb. AzərTAc Rusiyanın NTV telekanalına istinadla xəbər verir ki, bu obyekt alimləri həddən artıq çətinliyə salıb. Məsələ bundadır ki, o, Yer kürəsindən 12,8 milyard işıq ili qədər uzaqlıqda yerləşir. Alimlərə görə kainatın yaşı təxminən 13,7 milyard il olduğundan, belə çıxır ki, bu qara dəlik Böyük partlayışdan 900 milyon il sonra yaranıb. İndi astronomlar belə nəhəng obyektin bu qədər qısa zaman ərzində necə əmələ gəldiyi üzərində baş sındırırlar.

**Hazırladı: Ə.MƏHƏRRƏMOĞLU**

# Hərbi vətənpərvərlik mövzusunda tədbir



***Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Şəmkirdə yerləşən "N" hərbi hissəsində rayon təhsil müəssisələrinin şagird və tələbələrinin iştirakı ilə vətənpərvərlik mövzusunda tədbir keçirilib.***



Rayonun 7 orta təhsil müəssisəsindən 120 nəfər şagird və onları müşayiət edən müəllimləri hissə komandanlığı adından salamlayan polkovnik Elşad Əbilov hərbi hissənin yaranma tarixi, döyüş yolu, ərazidə yerləşən obyektlər barədə məlumat verərək onları şəxsi heyətin məişət şəraiti ilə tanış edib.

Qonaqlar Silahlı Qüvvələrin təchizatında olan silah, sursat, mühəndis, rabitə cihazları və avadanlıqları, səyyar təşviqat guşələri və mənəvi-psixoloji təminat vasitələri ilə əyani şəkildə tanış olublar. Hərbi hissənin ərazisindəki Heydər Əliyev Mərkəzini ziyarət edən qonaqlara ümummilli liderin həyat və fəaliyyəti barədə geniş məlumat verilib.

Şagirdlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müxtəlif vaxtlarda hərbi hissəyə səfərlərini, Silahlı Qüvvələrdə keçirilən təlimləri əks etdirən filmə, o cümlədən "Hər birimiz Mübarizik, Fəridik!" adlı qəhrəmanlıq balladasına baxıblar.

Tədbirin sonunda qonaqlar əsgərlərlə birlikdə nahar ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*

***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*

***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*

***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*

***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*

***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*

***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*

***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*

***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# "Xocalı sağalmayan yaramızdır"

***Xocalı faciəsinin 23-cü ildönümü "N" hərbi hissəsində də dərin hüznlə qeyd olunub. Mərasim iştirakçıları ulu öndər Heydər Əliyevin, bu soyqırımı zamanı qətlə yetirilmiş həmvətənlərimizin və bütövlükdə şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.***



Polkovnik-leytenant İkram Səfərov çıxışı zamanı erməni işğalçılarının Xocalıya hücumundan və həmvətənlərimizin amansızcasına, vəhşicəsinə qətlə yetirilməsindən ürək ağrısı ilə söhbət açıb. Bildirib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhəri erməni qəsbkarları tərəfindən yandırıldı, 613 nəfərdən çox şəhər sakini vəhşicəsinə qətlə yetirildi. "1275 nəfər qoca, uşaq və qadın əsir götürüldü. Onlar ermənilərin amansız zülmünə və məşəqqətlərinə məruz qaldılar. Bu faciə həmişə bizi ağrıdır, yandırır. Xocalı bizim sağalmayan yaramızdır. Düşmənlərdən şəhidlərimizin intiqamını almaq üçün biz hərbçilər döyüşə, vuruşa həmişə hazırıq", - deyə polkovnik-leytenant qeyd edib.

Zabit Bünyam Hümbətov isə Xocalı faciəsinin dünyada soyqırımı kimi tanınması istiqamətində Heydər Əliyev fondunun "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində apardığı uğurlu işlərdən danışıb.

Sonra mərasim iştirakçıları Mingəçevir şəhərinin mərkəzində ucaldılmış "Azərbaycanlıların soyqırımı" abidəsini və Şəhidlər xiyabanını ziyarət ediblər.

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**

*Fiziki hazırlıq*

# Qaliblər mükafatlandırıldı

***İdman insanda fiziki güclə bərabər dözümlülük, çəldlik, çeviklik kimi keyfiyyətlər aşılayır. Ona görə Azərbaycan Silahlı Qüvvələrində fiziki hazırlıq və idmana xüsusi diqqət yetirilir, müxtəlif yarışlar təşkil olunur. Bu günlərdə Hərbi Dəniz Qüvvələrində 3 kilometr məsafəyə kross qaçışı keçirilib. Hərbi bölmələrin həvəslə iştirak etdiyi yarışda idmançılar şəxsi və komanda hesabında mübarizə aparıblar.***



İdmançıların fərdi yarışında "N" hərbi hissəsinin miçmanı Firuz Mustafayev ən yaxşı nəticə göstərərək birinci, müddətdən artıq həqiqi xidmət hərbi qulluqçusu əsgər Sərxan Allahverdiyev ikinci, müddətdən artıq həqiqi xidmət hərbi qulluqçusu kiçik çavuş Yasin Məmmədov isə üçüncü mükafata layiq görülüblər.

Ümumi hesabda daha yaxşı mübarizə aparmış qaçışçılar komandalarına vacib xallar qazandırdılar.

Şəxsi və komanda hesabında hamıdan üstün olmuş idmançı və bölmələr mükafatlandırıldılar. Yarışın qaliblərinə Hərbi Dəniz Qüvvələri komandanının adından fəxri fərmanlar təqdim olundu.

# Hərbi hissədə futbol yarışı

***"N" hərbi hissəsində şəxsi heyətin istirahətini səmərəli təşkil etmək məqsədilə tez-tez mədəni-kütləvi tədbirlər keçirilir. Bu günlərdə hərbi hissənin bölmələri arasında təşkil edilmiş futbol yarışına zabit və əsgərlər maraqla tamaşa etmişlər.***



- Yarış "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında keçirildi, - zabit Ataş Məmmədov redaksiyamıza verdiyi məlumatda bildirir. - Meydançada döyüşçülər əsl idmançı həvəsilə mübarizə apardılar və baxımlı oyun nümayiş etdirdilər.

Finalda texnikaçılarla maddi-texniki təminatçılar qarşılaşdılar və sonuncular meydançanı qələbə ilə tərk edərək birinci oldular -1:3. Çavuşlar Ramil Babayev, Namiq Kərimov, əsgərlər İzzət Namətli, Ələkbər Əkbərov, Rəmzi Bədəlov maraqlı oyunları ilə tamaşaçıların rəğbətini qazandılar.

**Ə.MƏHƏRRƏMOĞLU,
"Azərbaycan Ordusu"**

# İdman

## Mingəçevir birinci Avropa Oyunlarına hazırlaşır



Mingəçevir ilk Avropa Oyunlarının avarçəkmə yarışlarına ciddi hazırlaşır. Burada "Kür" Olimpiya Tədris-İdman Mərkəzi beynəlxalq standartlara uyğun yenidən qurularaq 2010-cu ildə istismara verilib.

Mərkəzdə görülən işlər Avropa Olimpiya Komitəsinin (EOC) də diqqətindədir. Belə ki, EOC-un oyunlar üzrə baş məsləhətçisi Quido de Bondt və İrlandiya Milli Olimpiya Komitəsinin baş katibi Dermot Henihan bu yaxınlarda Mingəçevirə səfər edib, "Kür" Olimpiya Tədris-İdman Mərkəzində aparılan yenidənqurma işlərini müsbət qiymətləndiriblər.

Şəhərdə görülən işlər əminliklə deməyə əsas verir ki, Mingəçevir iyun ayında keçiriləcək ilk Avropa Oyunlarına yüksək səviyyədə ev sahibliyi edəcək.

## Avropa çempionumuzdan növbəti medal



Misirdə "Luxor Open" beynəlxalq turnirinin qalibləri müəyyənləşib. Taekvondo Federasiyasından apasport.az saytına verilən məlumata görə, Lüksor şəhərində keçirilən G-2 kateqoriyalı yarış Azərbaycan millisi üçün uğurla başlayıb. Belə ki, yığmamızın liderlərindən Radik İsayev turnirin gümüş medalına yiyələnib. 87 kq çəki dərəcəsində gücünü sınayan Avropa çempionu finalda rusiyalı Vladislav Larinə uduzaraq, ikinci yerlə kifayətlənib. Taekvondoçularımızdan Mikayıl Əliyevlə (58 kq) Natiq Abdullayev (54 kq) ilk, Maqomedyassin İbrahimov (58 kq) isə ikinci döyüşündə məğlub olub.

## Azərbaycanın üç boksçusu beynəlxalq turnirin yarımfinalına vəsiqə qazanıb




Bolqarıstanın paytaxtı Sofiyada boks üzrə "Strandja" turnirinin yarımfinalçıları müəyyənləşib. AzərTAc xəbər verir ki, Azərbaycanın üç boksçusu beynəlxalq turnirin yarımfinal mərhələsində yarışacaq. Turnirdə 64 kiloqram çəki dərəcəsində mübarizə aparan dünya çempionatının mükafatçısı Yelena Vıstropova yarımfinalda ispaniyalı Miriyam Qutyerrezlə üz-üzə gələcək.

Kişilərin yarışında isə iki boksçumuz - Elvin İsayev (60 kq) və Lorenzo Sotomayor (64 kq) turnirin medallarını özlərinə təmin ediblər. Onlar yarımfinalda bolqar idmançılarla qarşılaşacaqlar.

## Elmar Abdullayev konkur üzrə "Sərhədçi" kubokuna sahib olub



Novxanıdakı "Sərhədçi" Atçılıq Mərkəzinin qapalı manejində atçılığın konkur növü üzrə "Sərhədçi" kuboku uğrunda yarış keçirilib.

AzərTAc xəbər verir ki, ümumi mükafat fondu 5 min manat təşkil edən turnirdə Elmar Abdullayev "David" ləqəbli atla birinci olub.

"Gunay" atçılıq klubunu təmsil edən Marsel Even "Carreras MNM" ləqəbli atla ikinci, Seyid Musayev isə "Cisyy" ləqəbli at ilə üçüncü yeri tutublar.

## Stolüstü tennis üzrə ölkə çempionatına yekun vurulub



Şüa İdman Sağlamlıq Kompleksində keçirilən stolüstü tennis üzrə Azərbaycan çempionatına yekun vurulub. AzərTAc xəbər verir ki, yarışda şəhər və rayonların yığma komandalarını təmsil edən 50-dən çox tennisçi qüvvəsini sınayıb.

Oğlanlar arasında keçirilən komanda yarışlarında "Bakı-I", qızların yarışında isə "Sumqayıt-I" birinci yerə layiq görülüb. Oğlanların şəxsi yarışında Fərhad Əliyev, qızların yarışında isə çinli idmançı Denq Simenq fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Qızların qoşa yarışlarında çinli idmançılar - Denq Simenq və Zou Çuyi cütlüyü, oğlanların yarışında isə Xəyal Həşimli - Sənan Əliyev cütlüyü hamıdan üstün olub.

**Hazırladı:
Ə.MƏHƏRRƏMOĞLU**

*İdeoloji iş*

# Psixoloji müharibə

***Bu gün hər bir vətəndaşımız ayıq-sayıq olmalıdır. Hər birimiz özümüzü səngərdə xidmət aparan əsgər kimi hiss etməliyik. Çünki hər birimiz bu Vətənin əsgəriyik. Əsgərin də vəzifəsi ilk növbədə Vətənin müdafiəsində ayıq-sayıq dayanmaqdır. Deməli, hər birimiz əlimizdəki imkan və vasitələrdən düzgün istifadə edərək Vətənimizi düşmənin məkr və hiyləsindən qorumalıyıq.***

- Bəşəriyyətin tarixi müharibələr tarixidir - desək, yanılmarıq. Əlbəttə ki, bəşər mədəniyyətinin formalaşmağa başladığı ilk vaxtlarda müharibələr bu gün daşıdığı anlayışdan və ifadə etdiyi məzmundan kəskin şəkildə fərqlənib. Müasir dövrdə hər keçən gündə müharibələrin aparılma üsulları və taktikaları yenilənir. Bu təkcə müasir silah və texnikaların istehsalı ilə əlaqədar deyil. Həm də artıq bəşəriyyətin yeni təfəkkürü formalaşıb. Artıq bu gün münaqişə tərəflərinin köməyinə "Psixoloji müharibə" daha tez çatır. "Psixoloji müharibə" həm döyüş, həm də sülh şəraitində insanların duyğu, düşüncə və davranışlarını dəyişdirmək məqsədi ilə məlumatın istifadə edilməsi olaraq təyin olunur. Onun əsas silahı isə informasiyadır. Deməli, daha çox məlumatlı olan tərəf qələbəyə ən yaxın olanıdır.

Hər hansı bir informasiyanı əldə edən tərəf onu istər öz əhalisinə, istərsə də düşmən tərəfə istədiyi tərzdə çatdıra bilər. Buradan da bir anlayış ortaya çıxır ki, bu da dezinformasiyadır. Mütəşəkkil və sistemli yalan söyləmə fəaliyyəti olan dezinformasiya - hədəf kütləni gerçəklər qarşısında aldadaraq mənbəyi bəzən açıq, bəzən də qapalı şəkildə təqdim olunan təbliğat növüdür.

Bu gün Ermənistan tərəfi dezinformasiya yaymaqla məşğuldur. Baxmayaraq ki, Azərbaycan tərəfində informasiya daha çoxdur. Ağlı başında olan bir insan aydın şəkildə görər ki, cəbhə xəttinin o tərəfində günü-gündən iflasa uğrayan, əhalisi aclıqdan, səfalətdən əziyyət çəkən Ermənistan varsa, cəbhə xəttinin bu tərəfində isə hər keçən gündə daha bir yeniliyə imza atan, iqtisadi gücü, hərbi potensialı ilə regionun söz sahibinə çevrilən Azərbaycan var. Buna görə də bizim dezinformasiya yaymağımıza ehtiyac varmı? Əlbəttə ki, yox!

Bütün bu qeyd olunanlar bizi arxayın salmamalı, ayıq-sayıqlığımızı itirməməliyik. Təəssüflər olsun ki, düşmənin adi bir məlumat əldə etmək üçün dəridən-qabıqdan çıxdığı bir vaxtda bəzi vətəndaşlarımız, kütləvi informasiya vasitələrinin nümayəndələri biləqəkdən və ya bilməyərəkdən dövlət sirri təşkil edən bəzi məlumatları mətbuatda, sosial şəbəkələrdə, müxtəlif internet səhifələrində yaymaqla məşğuldurlar. Bu da öz növbəsində düşmən dəyirmanına su tökmək deməkdir.

Bəzən şahidi oluruq ki, müxtəlif mətbuat orqanlarında və sosial şəbəkələrdə hərbi hissə və ya bölmənin təyinatı, yerləşdiyi ərazisi və nömrəsi haqqında ətraflı məlumat verilir. Hətta ön xətdə olan zaman müdafiə rayonunun və postun ümumi görüntüsü, səngərlər, qarşı tərəfin mövqeləri, ərazinin maketi, məxfi xəritələr işıqlandırılır. Hərbi texnikaların bort nömrələri, sayı və dövlət qeydiyyat nişanları haqqında məlumatlar paylaşılır. Haqqında danışılan hərbi qulluqçuların rütbə və vəzifələri açıqlanaraq, vəzifəli şəxslər haqqında fərdi məlumatlar göstərilir.

Bütün bu qeyd olunanları nəzərə alaraq, hərbi sirr təşkil edən məlumatların yayılmasının qarşısını almaq məqsədi ilə Əlahiddə Ümumqoşun Ordusunun Mənəvi-Psixoloji Təminat Şöbəsi tərəfindən Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq qərarı ilə təsdiq olunmuş "Silahlı Qüvvələrdə kütləvi informasiya vasitələrinin nümayəndələri ilə işin təşkili haqqında Təlimat"a uyğun olaraq hərbi hissələrdə yerinə yetirilməsi tələb olunan təklif və qaydalar hazırlanıb. Hazırlanan "Təkliflər" Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bütün kütləvi informasiya vasitələrinə, Teleradio və Mətbuat Şuralarına, "Qaydalar" isə Əlahiddə Ümumqoşun Ordusunun tabeliyindəki hissə və bölmələrə göndərilib.

Qaydalarda Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 sentyabr tarixli "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" sərəncamından irəli gələn tələblərə riayət olunması da öz əksini tapıb. Həmçinin, Teleradio və Mətbuat Şuraları ilə birgə ordudakı yeniliklər və tətbiq olunan qaydalarla bağlı jurnalistlərlə brifinq, seminar və treninqlərin keçirilməsi də planlaşdırılıb.

Gənclərin hərbi vətənpərvərlik tərbiyəsində, eləcə də Əlahiddə Ümumqoşun Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığında mühüm rol oynadığını nəzərə alaraq, kütləvi informasiya vasitələrinin nümayəndələri ilə qarşılıqlı əlaqədə, birgə hərbi proqram və yazıların hazırlanması haqqındakı təkliflərin, hərbi hissə və bölmələrdə isə bu qaydaların tətbiqi artıq öz müsbət nəticələrini verməkdədir. Belə ki, Əlahiddə Ümumqoşun Ordusunun tabeliyindəki hissə və bölmələrdən kənara informasiya təhlükəsizliyi qaydalarını ciddi şəkildə pozan, əməliyyat şəraitinə mənfi təsir edən məlumatlar sızmır, kütləvi informasiya vasitələrinin nümayəndələri də vətəndaşlıq mövqelərini ortaya qoyaraq, "Psixoloji müharibə"nin əsas silahının informasiya olduğunu nəzərə alaraq düşmənin dezinformasiyalarını puça çıxarırlar.

Göründüyü kimi, hər bir vətəndaş "Psixoloji müharibə"nin iştirakçısıdır. Kimisi bu mübarizədə bilərəkdən və ya bilməyərəkdən düşmən dəyirmanına su tökür, kimisi isə düşmənə layiqincə zərbələr vurur. "Psixoloji müharibə"də insanın köməyinə təkcə informasiya, bilik və bacarıq çatmır, onun vicdanı da önəmli rol oynayır. Unutmayaq ki, Vətənini hədsiz məhəbbətlə sevən vicdanlı insanlar həmişə haqq döyüşündə qalib gəlirlər.

**Nəriman NƏCƏFOV,
Naxçıvan**

Kapitan İslamov Məmməd Seyran oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 302
Nüsxə 4600